***TARİX***

hffips://doi.org/10.5984Q/3006-1342.2025.1.3
UOT 316.3

*Nigar Əkrəm qızı Hüseynova*
*fəls.ü.f.d., dosent*
*Azərbaycan Dillər Universiteti,*
*Qərb ölkələri üzrə Regionşünaslıq kafedrası*
*Bakı ş. R.Behbudov küç.134*
*E-mail: huseynova_nigar@yahoo.com*
*https://orcid.org/0000-0003-3383-045X*

# MƏDƏNİYYƏT FƏLSƏFƏSİNDƏ İNSAN AMİLİ

*Adı çəkilən məqalədə bəşər mədəniyyətinin yaradıcısı və daşıyıcısı sayılan insan haqqında fəlsəfi təlimlər araşdırılır, ən qədim dövrdən müasir dövrümüzədək onun fəlsəfi dəyərlər sistemində mərkəzi mövcud olduğu qeyd edilir. Bütün dövrlər üçün göstərilir ki, insan və mədəniyyət problemi daima görkəmli filosofları və mədəniyyət xadimlərini düşündürmüş, azad cəmiyyətdə azad mədəniyyət və azad, xeyirxah və nəcib insan formalaşdırmaq amalı onların daima diqqər mərkəzində olmuşdur. Mədəniyyət fəlsəfəsində insan kimdir? O dərk ediləndir, yoxsa yox? Bu kimi suallar zamandan və məkandan asılı olmayaraq düşünən dərin zəka sahiblərini daima narahat etmişdir. Yazıda, həmçinin mədəniyyətin başlıca funksiyasının cəmiyyət üzvlərini maarifləndirilməsindən, etik davranış qaydalarının, ləyaqət və əxlaq fəlsəfəsinin təlim-tərbiyə prosesində ön plana çəkilməsindən bəhs edilir. Başqa sözlə, mədəniyyət insanı heç bir şeylə məhdudlaşdırmayan ifrat istehlakçıdan ancaq müəyyən hüdudlar daxilində mövcud ola bilən istehsalçıya çevirməyə yönəlməlidir. Beləliklə, müasir cəmiyyətlərin həyat tərzini maddi və mənəvi dəyərlər kontekstində təhlili bizə onu deməyə tam əsas verir ki, mədəniyyət düzgün həyat tərzinin göstəricisidir.*

*Adətən milli mədəniyyətlərin inkişafının dövrləşdirilməsi ümumiyyətlə ictimai həyatın tarixi təsnifatı ilə uyğunlaşdırılır. Belə hesab etmək olar ki, milli mədəniyyət əsaslı olaraq mədəniyyətin və xüsusən mənəvi mədəniyyətin üzərində formalaşır.*

*Sosial-fəlsəfi təhlil göstərir ki, milli-mənəvi dəyərlərin aşılanması müəyyən istiqamətlər - tədris, idarəetmə, bədii təfəkkür, gündəlik ünsiyyət üzrə aparılmasa, onda həmin dəyərlərin əsasındakı bəşəri humanizm ideologiyası sarsılar, buna söykənən gündəlik stereotiplər və qaydalar artıq ifrat şəklə düşərək şüurun "lümpenləşməsi" ilə nəticələnə bilər.*

*Açar sözlər:* mədəniyyət, mənəvi dəyərlər, maddi mədəniyyət, insan, fərd, şəxsiyyət, mənəvi mədəniyyət

## *Giriş*

Fəlsəfi ədəbiyyatda, mədəniyyət nəzəriyyəsində mədəniyyətin əsasən maddi və mənəvi anlamlardan ibarət olduğu fikri irəli sürülür, onların oxşar və fərqli cəhətləri təhlil edilir.

Mədəniyyətin, o cümlədən onun tərkib hissəsi olan milli mədəniyyətin öyrənilməsi prosesində tez-tez tarixə müraciət olunur. Bu, təbiidir. Çünki, mədəniyyətin məzmunu onun keçdiyi yoldan, yəni tarixdən ibarətdir. Təsadüfi deyil ki, unutqanlıq insanın ən böyük qəbahəti sayılır. Bu mənada öz tarixini unutmuş xalq öz milli identikliyini itirmiş hesab

olunur. [6, s.5]. Hər bir xalqın tarixi yaddaşı onun keçmişindədir: bu keçmişdə isə xalqın keçdiyi yol hansı mərhələdə olursa olsun – o, iştirak etmişdir. Burada icma, qəbilə, tayfa, xalq, etnik qrup və XIX əsrdən etibarən meydana çıxmış millət formalarında yaşayan insan nəslinin tarixi yazılmışdır. Bu mənada öz mentallığını, özənəməxsusluğunu indi də saxlamaq təlabatını duyan hər bir xalq keçdiyi tarixi yol nəticəsində formalaşdırdığı ərazi bütövlüyünü qorumağa, milli dəyərlərini saflaşdırmağa çalışır. O, bunu etmək üşün güclü liderlərə, dini etiqadlara, regional münasibətlərin müəyyən nisbətinə, dövlətin gücünə, mənəvi dəyərlər və bir çox başqa imkanlara müraciət etməyə məcburdur.

Milli mədəniyyətin vətəndaş cəmiyyətində yerinin və sosial preseslərdə rolunun müəyyən edilməsində metodoloji yanaşma ümumi şəkildə tələb edir ki, bunun qiymətləndirilməsi ən ümumi əsaslar üzərində qurulmalıdır. Həmin əsasları bəzi tədqiqatçılar qlobal və yaxud müasir mədəniyyət adlandırırlar.

Milli mədəniyyətdə varislik həm də tarixi şüurun inkişafı və zənginləşməsi deməkdir. Varislik olmadan mədəni dəyəri yenidən yaratmaq qeyri-mümkündür. Başa düşmək lazımdır ki, mədəniyyət özü tarixi hadisə olaraq sivilizasiyanın bəhrəsidir. Heç bir tarixi dövr öz zəngin irsini növbəti dövrə mübarizəsiz, itkilərsiz ötürməz. Belə halda burada müəyyən boşluqlar yaranır. Geniş tarixi fon adətən sabit, təkrarlanan mədəniyyətin yaranması üçün zəmin bəlkə də heç formalaşmazdı. Amma buraya daha bir amili – iqtisadi münasibətlərin xüsusiyyətlərini də əlavə etmək lazımdır. Məhz bu münasibətlərin istiqamətləri vətəndaş cəmiyyətinin ayrı-ayrı regionlarda siyasi inkişafına təkan verərək, milli mədəniyyətlərin formalaşmasına səbəb olmuşdur. Tədricən yetişən milli özünüdərk həm də ictimai şüurda xüsusi ideoloji təfəkkürün yaranması ilə müşayiət olunmuşdur.

Bilindiyi kimi maddi mədəniyyətdən fərqli olaraq mənəvi mədəniyyət tarixən təkamül yolu ilə formalaşır və öz mahiyyəti etibarilə, dəyişkənlik baxımından tədrici inkişafa meyllidir. Belə ki, cəmiyyətin iqtisadi və siyasi həyatında gedən dəyişiklik heç də mexaniki olaraq mənəvi həyatın dəyişməsinə gətirib çıxarmır.

Mənəvi həyatda, xüsusilə dünyagörüşdə və ideologiyada gedən tədrici dəyişkənlik isə nəticə etibarilə iqtisadi və siyasi dəyişikliklərə səbəb olur və cəmiyyətin tərəqqisini təmin edir. Tarixən yaranan, öz köklərindən genişlənərək formalaşan mənəvi mədəniyyət kənar təsirlərə demək olar ki, məruz qalmır. Kənardan əxz etdiyi elementləri isə özündə əridir və daha da zənginləşdirir. Burada yamsılama, imitasiya yalnız mənfi rol oynaya bilər. Çünki, özünüqoruma, özünümüdafiə mədəniyyətin keyfiyyət göstəricilərindən biri olmaqla yanaşı, həm də tərəqqiyə xidmət etməlidir. Belə ki, donmuş, ehkamlanmış ənənələrə söykənən mədəniyyət cəmiyyətin geri qalmasına gətirib çıxara bilər. Başqa sözlə, burada da ənənəvi olanla yeni olanın vəhdətinə nail olmaq lazımdır. Bu isə uzun sürən tarixi bir prosesdir və məsələnin qoyuluşunda hansısa bir tələskənliyə, zorakılığa yol verməklə nə isə əldə etmək mümkün deyil. Burada mövcud olan mühafizəkarlıq (konservatizm) pozitiv və rasional mühafizəkarlıqdır. Adətən özünün təməl mədəniyyətinə söykənən xalq öz iqtisadi həyatını da müstəqil halda qura bilir və onunla birgə əməkdaşlıq edən xarici sistemlər məhz onun mədəniyyəti, qanun və qaydaları ilə hesablaşmalı olurlar. Çünki belə olmadan onlar fəaliyyət göstərə, uğur qazana bilməzlər. Məhz bu səbəbdən mədəniyyət həm də iqtisadiyyatın əsas tərkib hissələrindən biri kimi çıxış edir [1, s.11].

Mənəvi mədəniyyətdə müşayiət olunmayan həyat tərzi onun səviyyəsindən asılı olmayaraq özlüyündə eybəcər olan bir həyat tərzidir. Təsadüfi deyil ki, mənəvi mədəniyyəti sosial orqanizm olan cəmiyyətin genetikası adlandırırlar. Məlumdur ki, sağlam genetik fond, sağlam sosial mühit olmadan sağlam insan dünyaya gətirmək mümkün deyildir.

Eyni zamanda biz nə qədər mənəvi mədəniyyətdən bəhs etsək də, mənəviyyat istər-istəməz maddi mədəniyyətlə müşayiət olunur. Bunlar arasındakı mənəvi asılılığı, əlaqəni,

birinin digəri ilə dialektik vəhdətini görməmək, onlardan təcrid olunmuş formada ayrı-ayrılıqda bəhs etəkreallıqla əlaqəsi olmayan abstraksiyalarla məşğul olmağa bərabərdir. Maddi mədəniyyət mənəvi təlabata, mənəvi təlabat isə maddi imkanlara, yəni qarşılıqlı təsir, bir-birini tamamlama mexanizminə malik olmalıdır.

Bəzi hallarda isə bir qrup adamlar mədəniyyəti ədəbiyyat və incəsənətlə (musiqi, heykəltəraşlıq, rəssamlır, teatr sənəti və s.) dəyişik salaraq onları eyniləşdirirlər. Düzdür, bütün bunlar ümumi mədəniyyət anlayışına daxildirlər, lakin deyilənlər heç də həmişə bu anlayışı bütövlükdə ehtiva etmir. Çünki, mədəniyyət anlayışı daha geniş anlayışdır və o bütövlükdə cəmiyyətin düşüncə, işgüzarlıq və mənəvi-əxlaqi səviyyəsini göstərir. Mədəniyyətin fərdi səviyyədə dərk edilməsi isə bu və ya digər ölçüdə cəmiyyətin hər bir vətəndaşına aid olan keyfiyyətdir, çünki hər bir cəmiyyət onun vətəndaşlarından ibarətdir. Bu mənada mədəniyyət anlayışı mentalitet, arxetip kimi kateqoriyaları da öz strukturuna daxil edir, lakin bunların heç biri əvvəllər hər hansı bir zaman kəsiyində formalaşmış, stereotipləşmiş, mütləqləşmiş anlayışlar deyildir. Bütün bu deyilənlər varislik pronsipi əsasında sabitliklə dəyişkənliyin vəhdətindən ibarətdir. Burada sabitlik hər cür qondarma yeniliyin qarşısını kəsir. Əsl yenilik isə sabitliyin ehkamlaşmasına, bəsitləşməsinə, inkişafın qarşısının alınmasına imkan vermir. Mütləqləşmiş sabitlik bəsitliyə, durğunluğa, tənəzzülə apardığı kimi hay-küyçü yenilik də destrukturizasiyaya, xaosa və deqradasiyaya doğru aparır.

Mədəniyyətin başlıca funksiyası bir çox hallarda cəmiyyəti bütöv bir sistem kimi irəli aparmaqdan, inkişaf etdirməkdən, hər cür antisosial davranışı aradan qaldırmağa səy göstərməkdən ibarətdir [2, s.78]. Bu isə ilk növbədə ləyaqət kodeksinə uyğun şəkildə yaşamaq deməkdir [3, s.133]. Başqa sözlə, bu həm də bizə bəlli olan mövcud əxlaq və hüquq normalarına cəmiyyət üzvləri tərəfindən riayət olunmsı, onların gözlənilməsi deməkdir. Əlbəttə, heç bir faydalı bir işlə məşğul olmağı öyrənməyib, yaxud öyrənmək istəməyib yalnız cəmiyyətin hesabına gen-bol yaşamağı üstün tutanlar və buna nail olmadıqda gecə-gündüz yaşadığı cəmiyyəti pisləyənlər, şər əməllər sahibləri və vicdanları şikəst olanlar başqa sözlə heç vaxt öz şərəf və ləyaqətləri, qeyrət və namusları haqqında düşünməyən, insanlığa tikan olan, cılız adamlardırlar. Bəzən belə adamlar müxtəlif səbəblərdən narazı olanları öz ətrafına toplayaraq hətta müəyyən bir qüvvəyə də çevrilə bilirlər. Lakin onların məqsədləri öz fərdi, məhdud, şəxsi maraqlarından kənara çıxmır və bu maraqlara nail olmaq üçün hər cür vasitədən istifadə etməyə hazırdırlar. Buna görə də ümumi mədəni səviyyə olmadan yüksək sosial düşüncə məfkurəsini təmin etmək heç cürə mümkün deyildir. Bunların vəhdəti isə tarixin müxtəlif mərhələlərində özünü müxtəlif cür göstərir.

Təəssüf hissi ilə də olsa deməliyik ki, mədəniyyətin nüvəsini təşkil edən insana humanist yanaşma insan üzərində zorakılıq, zülm, kütləvi qırğın, hərbi konfliktlər və s. ilə əvəz olunur. XIX əsrin 60-cı illərində ingilislərin Hindistanda törətdiyi qırğınlar, XX əsrin 40-cı illərinin birinci yarısında alman faşistlərinin Almaniyada və Polşada həyata keçirdikləri yəhudi genosidi, XX əsrin sonunda antitürk və antiazərbaycan virusu ilə xəstəlnmiş ermənilərin Qarabağda və Xocalıda törətdikləri vəhşiliklər tarixin dəhşətli hadisələridir. Buna görə də humanizmi gəlişi gözəl sözlərdən praktik həyata, gündəlik həyat tərzinə, başqa sözlə müasir sosial tərəqqinin göstəricilərindən birinə çevirmək lazımdır. Düşünürük ki, əgər müasir cəmiyyətlər bütövlükdə humanistləşməsə, humanizm sosiallaşmasa, sosial məzmin kəsb etməsə tək-tək adamların humanizmi, onların humanist ideyaları xoş istək və arzu olaraq qalmaqda davam edəcək. Cəmiyyətdə isə, təbiətdə olduğu kimi, güclü özünə bərabər olmayanı məhv edər, öz yemininə çevirər. Bu mənada sosial darvinizm məhz intellektin humanizmlə, texniki sivilizasiyanın mənəviyyatla uyğun gəlmədiyi, insanın sərvət toplamaq və başqaları üzərində hökmranlıq etmək ehtirasının baş alıb getdiyi cəmiyyyətlər üçün özünü doğruldur.

Ümumiyyətlə, öz-özünü dərk etmək imkanına malik olan hər bir insan şəxsiyyət ola bilmək potensialına, imkanına malik olmalıdır. Fərd sadəcə olaraq mövcudluqdur. Bütün bu sadalanan keyfiyyətləri hər bir fərd özü reallaşdırmalı, real gerçəkliyə çevirməlidir. Bəzən qəribə də olsa ictimai fikirdə belə bir yanlış təsəvvür yaranır ki, guya ali məktəbdə oxuyan, universitet təhsili alan adamlar mədəni olurlar. Adi həyatda isə biz diplomlu dilletantlara, müstəqil düşünmə qabiliyyətinə malik olmayanlarla, adi bir məsələni həll edə bilməyənlərə, mənəvi düşgünlərlə, özündən müştəbeh olanlarla qarşılaşırıq. Buna görə də təhsillə mədəniyyəti qarşı-qarşıya qoymaq əslində məsələyə yanlış yanaşmaq deməkdir. Təhsil hər şeydən əvvəl bu və ya digər səviyyədə müəyyən bir ixtisasa, peşəyə yiyələnmədir. Mədəniyyət isə ilk növbədə insanın özünü, ona aid edilən davranış qaydalarını və əxlaq normalarını tənzimləməsi və onlara nəzarət edə bilməsi deməkdir. Əgər o, öz səhvlərini başa düşmək əvəzinə hər vəchlə özünə haqq qazandırmağa çalışırsa, deməli şəxsiyyət kimi hələ də tam formalaşmayıb və kamillik səviyyəsindən çox uzaqdır. İnsan və mədəniyyət probleminin tədqiqi ilə məşğul olan tədqiqatçılar bəzi hallarda şəxsiyyət anlayışı ilə yanaşı kamillik və kamil şəxsiyyət ifadələrindən də istifadə edirlər. Görünür, elə bu da yarımçılıqla bütövlüyü, başqa sözlə, ilk növbədə fərdlə insanı, daha sonra isə insanla kamil insanı bir-birindən ayırmaq üçündür. Bu cür bütöv və kamil şəxsiyyətlər isə yalnız təhsil səviyyəsi ilə müəyyən edilmir. Bəzən hər birimiz az savadı olan, hər hansı bir sadə işlə məşğul olan, lakin sözü ilə əməli, ləyaqəti ilə işi bir olan, son dərəcə səmimi, halalla haramı bir-birindən ayıran, sadə həyat tərzinə malik olan adamlar tanıyırıq. Məhz belə adamlar obrazlı dildə desək cəmiyyətin mənəvi sağalmlıq generatorları və filtirləri, insanlığın bəzəyi və əxlaq fəlsəfəmizin daşıyıcılarıdırar.

Cəmiyyət həyatının düzgün təşkil olunmasında onun bacarıqlı, kreativ nümayəndələrinin rolu böyükdür. Bu qəbildən olan adamlar cəmiyyəti elə təşkil etməlidirlər ki, əhalinin böyük əksəriyyəti yaxşı yaşaya bilsin. Adətən inkişaf etməyən üçüncü dünya ölkələrində cəmiyyət üzvləri arasında təbii sərvətlər düzgün bölüşdürülmədikdə və bu təbii sərvətlərin mənimsənilməsində disbalans yarandıqda, yaşayış səviyyəsi arasındakı fərq dəfələrlə böyüdükdə bütün bu amillər insanların narazılığına səbəb olur və elə halda cəmiyyət həyatındakı sabitlik, harmoniya pozulmağa başlayır. Əgər bunun üstünə korrupsiya, rüşvət və müxtəlif cürə proteksiya hallarını da gəlsək, onda sosial strukturda çoxlu sayda etiraz edənlər, narazı olanlar ordusu yaranır. Belə olan vəziyyətdə kriminal da artmağa başlayır. Məlumdur ki, insanlar da əmək və iş qabiliyyətlərinə, müxtəlif psixi və əqli səviyyələrinə görə eyni olmurlar. Hansısa sadə bir peşəyə yiyələnməklərinə, hansısa sadə bir işi icra etməklərinə baxmayaraq, onların hamısı yaxşı yaşamaq istəyirlər. Onlar təbiətən heç bir kreativliyə malik deyillər, lakin cəmiyyət həyatı üçün çox lazımlı adamlardırlar. Məhz belə adamlar cəmiyyətin maddi həyatını təmin edən, maddi istehsalı hərəkətə gətirən insanlardırlar və onların hamı kimi yaxşı yaşamağa haqqları var. Kreativlər isə müxtəlif səviyyələrdə sosial strukturun təşkilində, elmin və təhsilin cəmiyyətin tələbinə uyğun olaraq qurulmasında iştirak edən modernləşmə siyasətini irəli aparan adamlardır. Bunların vəzifəsi insanların yüksək həyat səviyyəsini təmin etmək və öz həyatlarını da bu ümumi inkişaf pilləsində görməkdən ibarətdir. Fəlsəfi fikir tarixindən bizə yaxşı bəllidir ki, əgər kreativ adamlar öz imkan və qabiliyyətlərindən bütövlükdə cəmiyyət üçün deyil, daha çox öz şəxsi maraqları üçün istifadə etməyə başlayırlarsa, o zaman cəmiyyətin və onu idarə edən dövlətin həyatında harmoniya əvəzinə disharmoniya yaranır və narazılıq ovqatı yaranır. Bu tip inkişaf etməyən cəmiyyətlərdə adətən yaşamaq da çətinləşir. Burada mədəniyyət daha çox zahiri göstəricilərlə ölçülməyə başlayır və özünün əsas daxili mənəvi əhəmiyyətini itirir. Yəni o sadəcə olaraq həyat tərzindən daha çox hansısa formal bir mərasim səviyyəsinə çevirir.

Mədəniyyət, adətən insanın qəlbində, mənəviyyatında mövcud olan komponentdir [4, s.85]. Bu komponent, bu şərt nədirsə, insan da odur. Burada insanın əxlaqı, onun şəxsi keyfiyyətləri ilə bağlı olmayan xarici görünüşlər çox az əhəmiyyət kəsb edir. Buna görə də insan xarici görünüşü ilə deyil, yüksək mənəviyyatı və hansısa bir işi, bir peşəni yerinə yetirə bilmək bacarığı ilə fərqlənməlidir. Məhz buna görə də insanın düşünə bilmək qabiliyyətinin bütün imkanları maddi və mənəvi sərvətlərin yaranmasna yönəlməlidir.

*Nəticə*

Başqa sözlə, mədəniyyət hər bir insanın daxili aləminin, onun düşüncə tərzinin, səviyyəsinin və fəaliyyətinin fərdi xüsusiyyətləri ilə yanaşı, həm də bu fəaliyyətin ictimai faydalılıq əmsalının göstəricisidir. Çünki mədəniyyət insanın fərdi dünyası, daxili aləmidir. Onun ruhudur [5, s.12]. Onu heç cürə zahiri göstəricilərlə müəyyənləşdirmək olmaz. Əgər zahiri göstəricilər daxili göstəricilərlə həmahəng deyilsə, onda bu, hər şeydən əvvəl özünü aldatmadır, yaxud kimə isə oxşamaq, onu yamsılamaq cəhdidir. Mədəniyyətin təsiri zəminində fərd o zaman şəxsiyyətə çevrilir ki, o, ancaq özünə oxşayır, öz şəxsi keyfiyyətləri ilə əbədiyaşarlıq haqqını qazanır, cəmiyyət və xalq qarşısında göstərdiyi xidmətlərə görə nəslin qan yaddaşlarında dərin izlər buraxır, yaxud öz yadda qalan və silinməz dəsti xətti olan digərlərinə örnək olur. Bu özüllük, təkrarsızlıq şəxsiyyəti zaman və məkan müstəvisində formalaşdıraraq, onu digərlərindən fərqləndirir, onu bənzərsiz edir.

ƏDƏBİYYAT


1. Зиновьев А.А. Запад. Феномен западнизма. М.2023 с.11
2. Елецкий Н. Больное образование в больном обществе // Свободная мысль, 2008, №7, с.78
3. Лосский Н.О. Условий абсолютного добра. Б.2011, с.133
4. Зинченко В.П. Ценности в структуре сознания // Вопросы философии, 2011, № 8, с. 85-97
5. Ясперс Карл, Бодрийяр Жан. Призрак толпы. Родина, 2023, с. 12
6. Знание о прошлом в современной культуре (материалы «круглого стола») 2011, № 8, с.3-45


УДК 316.3

*Нигяр Акрам кызы Гусейнова*
*Азербайджанский Университет Языков*

ЧЕЛОВЕЧЕСКИЙ ФАКТОР В ФИЛОСОФИИ КУЛЬТУРЫ

*РЕЗЮМЕ*

*Ключевые слова:* культура, духовные ценности, материальная культура, человек, индивидуум, личность, духовная культура

В данной статье исследуются философские учения о человеке, как создателя и носителя мировой культуры, который является центральной фигурой в системе ценностей с древнейших времен до сегодняшних день. Автор справедливо отмечает, что во все времена проблема человека и культуры была объектом размышлений известных философов и деятелей культуры. Идея формирования свободного и гармоничного человека в системе свободного общества всегда было в поле их зрения.

Кто же человек в системе их зрения? Познаваем он, или нет? Независимо от времени и пространство эти вопросы всегда беспокоили мыслящих людей. В статье также говориться о просветительской функции культуры об этических нормах поведения, о выдвижении этической философии в процессе обучения на первый план.

Обычно периодизация развития национальных культур в целом соответствует исторической классификации общественной жизни. Можно считать, что национальная культура в своей основе формируется на основе культуры, и особенно духовной культуры.

Социально-философский анализ показывает, что если не осуществлять привитие национально-нравственных ценностей в отдельных сферах – образовании, управлении, художественном мышлении, бытовом общении, то идеология гуманизма, лежащая в основе этих ценностей, будет подорвана, а основанные на ней бытовые стереотипы и правила могут стать крайними и привести к «люмпенизации» сознания.

UDC 316.3

*Nigar Akram Huseynova*
*Azerbaijan University pf Languages*

HUMAN FACTOR IN PHILOSOPHY OF CULTURE
*SUMMARY*

*Key words:* culture, spiritual values, material culture, human, individual, personality, spiritual culture

Philosophical teachings about human as the creator and bearer of world culture, which is the central figure in the system of values from ancient times to nowadays, are explored in this article. The author rightly notes that at all times the problem of human and culture has been the famous philosophers and cultural figures object of thought. The idea of forming a free and harmonious person in the system of a free society was always in the field of their vision. Who is the human in the system of their vision? Do we know him or not? Regardless of time and space, these questions have always bothered thinking people. The article also deals with the educational function of culture, ethical norms of behavior, bringing ethical philosophy to the fore during training.

Usually, the periodization of the development of national cultures generally corresponds to the historical classification of public life. It can be considered that the national culture is basically formed on the basis of culture, and especially spiritual culture.

Socio-philosophical analysis indicates that if the inculcation of national and moral values is not carried out in certain spheres - education, management, artistic thinking, domestic society, then the ideology of humanism, which is the basis of these values, will be undermined, and the household stereotypes and rules based on it can become extreme and lead to “lumpenization” of consciousness.

***Daxil oldu: 03.03.2025-ci il***